**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru**

**Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illik yubleyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə ali iqtisadi təhsilli kadrların hazırlanmasında, gənc nəslin müstəqil dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunması kimi şərəfli və məsuliyyətli fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Azərbaycan Dövlət İqtisad Universiteti 90 il ərzində təqdirəlayiq inkişaf yolu keçmiş, təhsil xidmətləri ixrac edən ali təhsil müəssisəsinə çevrilmişdir. UNEC-in bakalavr və magistr səviyyəsi üzrə Fransanın, ABŞ-ın, Litvanın, Rusiyanın və başqa xarici dövlətlərin universitetləri ilə ikili diplom proqramlarına qatılması, universitetin məzunlarının 4 ilə hər iki universitetin diplomlarını əldə edə blmələri ali təhsil müəssisəsinin uğurlarındandır.

2018-2019-cu illərdə Azərbaycan Dövlət İqtisad Universiteti ən yaxşı universitet kimi Asiya regionu üzrə seçilən 200 universitet arasında 122-ci yerdə qərarlaşmışdır. “UniRank”-ın hesabatına görə isə universitet Azərbaycanın təhsil müəssisələri üzrə birinci yerdədir və dünya universitetləri arasında Azərbaycanı layiqincə təmsil edir.

Təhsil ocağının professor və müəllim heyətinin fədakar əməyi sayəsində ölkəmizə bəxş etdiyi ali iqtisadi təhsilli kadrların Azərbaycanın iqtisadiyyatının inkişafında önəmli rolu var. Məhz onların fəaliyyəti sayəsində Azərbaycan inikişaf etmiş ölkələrə çatıb və hətta bəzi iqtisadi göstəricilər üzrə onlardan irəli keçib.

**Hörmətli Ədalət müəllim,**

Bir daha Sizi və rəhbərlik etdiyiniz bütün professor-müəllim heyyətini universitetin 90 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə yüksək ixtisaslı kadrların hazırlanmasında, onların vətənpərvər ruhda formalaşmasında yeni-yeni uğurlar arzulayıram.

Yubileyiniz mübarək!

***Hörmətlə,***
***Tərtər Rayon İcra Hakimiyyətinin başçısı M.S.Məmmədov***